https://doi.org/10.59849/3006-1342.2024.1.90
UOT 94

*Y.İ.Süleymanov*
*Gəncə Dövlət Universiteti*
*Gəncə ş., H.Əliyev pr., 429*
*E-mail: suleymanov.y@mail.ru*

# ERMƏNİLƏR YAXIN ŞƏRQ XALQLARINI XAÇLILARA NECƏ SATMIŞDILAR

*Xaç yürüşləri orta əsrlər tarixi dövrünün ən önəmli hadisələrindən birini təşkil edir. Xaç yürüşlərinin tarixinin araşdırılması bu gün də öz aktuallığı ilə seçilir. Tədqiq etdiyimiz bu dövrdə xaç yürüşlərinin gedişi prosesində ermənilərin (hayların) xəyanəti, onların bu və ya digər bir-biri ilə mübariyzə aparan tərəflərə keçərək xəyanət etməsi, öz müttəfiqlərini son anda satması kimi baş vermiş hadisələr təhlil edilmiş və məlum olan tarixi faktlara istinad olunaraq işıqlandırılmışdır. Xaç yürüşlərinin gedişində ermənilərin Şərq xalqlarına qarşı etdikləri xəyanət, onların ikiüzlülüyü, xain xislətləri burada öz əksini tapmışdır.*

*Açar sözlər:* xaç yürüşləri, xaçlılar, ermənilər, Səlcuq türkləri, Bizans, Antioxiya

Ermənilər dünyanın həssas bölgələrindən biri olan Orta Şərqdə daim ya münaqişə yaratmaqda, ya da münaqişələrin qızışdırılmasında katalizator rolunu oynayıblar. Eyni zamanda, batan gəmini tərk edən gəmiricilər kimi Yaxın Şərqdə münaqişə alovlanan zaman ölkəni hamıdan qabaq tərk edərək, başqa ölkələrə qaçıblar.

Ermənilərin Yaxın Şərq regionuna necə gəlib çıxmaları haqqında müxtəlif fərziyyələr mövcuddur. Onlar, özləri guya e.ə. X-VI əsrlər arasında, Tiqranın dövründə "Böyük Ermənistan Xəzər dənizindən Aralıq dənizinə qədər olan zaman"dan etibarən orada yaşadıqlarını iddia etsələr də, tarixi faktlar başqa versiyaların həqiqət olduğunu deməyə imkan verir.

Ermənilər (haylar) Xaç yürüşləri zamanı Yaxın Şərqə hücum edən xaçlılarla sıx əməkdaşlıq edən satqın xalq olublar. Buna qədər isə Yaxın Şərqdə məskunlaşmış pravoslav ermənilər hələ erkən orta əsrlərdə Konstantinopol kilsəsinə tabe olduqları halda, Roma katolik kilsəsi ilə əlaqə saxlayırdılar.

1054-cü ildə xristian kilsəsinin Şərq (pravoslav) və Qərb (katolik) kilsələrinə parçalanması ermənilərə heç bir təsir göstərmədi, onlar iki tərəfə - həm Roma taxt-tacına, həm də Konstantinopol patriarxlığına xidmət göstərirdilər. Hətta Bizansın nəzarətində olan ərazilərdə yaşadıqları halda, romalılara casusluq edirdilər.

Antioxiyadan olan məşhur qanun təfsirçisi Nikon "Tantikon" adlı əsərində I Xaç yürüşü zamanı Pravoslav Antioxiya Patriaraxlığının tabeçiliyində olan Antioxiya şəhəri ətrafında (qədim Suriyada şəhər, indiki Türkiyənin Hatay vilayətinin mərkəzi olan Antakya) və Əmman təpəliklərində çoxsaylı pravoslav erməni rahiblərinin yaşadıqlarını göstərir. Pravoslav ermənilər Qara dağda çoxdan məskunlaşmışdılar. "Taktikon"un 36-cı fəslində Nikon Qüdsdəki Gerasim Ataya yazır ki, Antioxiyanın 1098-ci ildə xaçlılar tərəfindən tutulmasından və şəhərin süqutundan sonra o, burada çoxlu erməni rahibləri ilə qarşılaşıb. Ermənilər həm də Antioxiyadan qərbdəki Div dağında yerləşən digər monastırlarda da yaşayırdılar.

Nikonun Antiox patriarxına yazılarında deyilir: "Qədim dövrlərdən bəri onlar Mesopotamiyada yaşayırla və burada onların öz mitropolitləri vardır. Bütpərəst xalqların hücumları nəticəsində onlar müxtəlif ölkələrə qaçıblar. Onların mitropolitini Antioxiya patriarxı tərk edir, çünki bu Şərq taxt-tacıdır". Bu o deməkdir ki, Mesopotamiya ərazisindəki

Antioxiya vilayəti Hindistandan qaçıb gəlmiş qaraçı əsilli köçəri ermənilərin (hayların) ikinci vətəni olub. Əgər onların iddia etdiyi kimi, "Böyük Ermənistan" doğurdan da mövcud olmuş olsaydı və ya onun qalıqları belə qalsaydı, həmin qüdrətli imperiya özünün titullu xalqı olan erməniləri müdafiə edər və onun təbəələri azsaylı bütpərəst tayfaların qarşısından qaçıb digər ərazilərə səpələnməzdilər. Bu onu göstərir ki, onlar həmin əraziyə gəlmə, azsaylı köçəri tayfa olublar. Həmin ərazi indi İŞİD və PKK arasında döyüşlərin getdiyi torpaqlardır və ermənilər öz tarixi vətənləri barədə düşünürlərsə, gedib İŞİD-lə vuruşsalar, daha yaxşı olar.

Erməni mitropolitinin Antioxiya patriarxı tərəfindən tərk edilməsi də, onların müstəqil deyil, asılı tayfa olduğunu sübut edir. Kiçik Asiyada digər erməni yeparxiyaları da XI əsrdə latın Antioxiya kafedral kilsəsinə tabe idi.

Ermənilər (haylar) ayrı-ayrı imperiyaların, o cümlədən Bizans ordusunun tərkibində muzdla vuruşurdular. Öz imperiyası olan xalq yəqin ki, başqa dövlət üçün deyil, öz dövləti üçün vuruşardı.

1071-ci il avqustun 26-da baş vermiş məşhur Malazgird savaşında səlcuq türklərinin zəfər çalmasından, eləcə də gürcü dövlətinin möhkəmlənməsindən sonra ermənilərin (hayların) latınlılarla (xaçlılarla) əlaqələri daha da sıxlaşmış oldu. 1099-cu ildə xaçlıların Qüdsü (Yerusəlimi) səlcuq türklərinin əlindən almasından sonra orada latın patriarxlığı təşəkkül tapdı. Yaxın Şərqdəki müsəlman-xaçpərəst qarşıdurması zamanı ermənilər hər iki tərəfə yaltaqlanmaqdan usanmırdılar. Onlar bir tərəfdən xristianlara müsəlmanlara qarşı mübarizədə yardım etmək üçün xaçlılarla danışıqlar aparır, digər tərəfdən isə müsəlman hökmdarlarla əlaqə saxlamaqda davam edirdilər. Məsələn, onlar Əyyubilərlə yaxı əlaqələr qurmuş, hətta sultan əl–Məlik əl Əşrəf gürcü-erməni əsilli İvane Zaxaryanın qızı ilə evlənmişdi.

1255-ci ildə ermənilər özlərini "Roma Kilsəsinin Oğulları" elan edərək,Fransa kralı XI Lüdovikin elçlərinə Roma taxt-tacına tabe olmaq istədiklərini bildirdilər. Həmin dövrdə erməni yeparxiyası gürcü kilsəsinin tərkibində idi. Beləliklə, XIII əsrdən gürcü kilsəsində mərkəzdənqaçma siyasəti yürüdən pravoslav ermənilər separatçılıq edərək, Roma taxt-tacına birləşməyə çalışırdılar. Bununla yanaşı, erməni monofizit Kilikiya kilsəsində də Romaya tabe olmaq istiqamətində də fəaliyyət genişləndirilmişdi.

Bunula belə, ermənilər güclü siyasi qüvvə kimi qəbul edilmirdilər. Baxmayaraq ki, Yaxın Şərqdə xaçlıların gəlişinə ən çox sevinən onlar idilər və məhz ermənilər (haylar) xaçlıları səlcuq türklərinə qarşı daha amansız müharibələrə təhrik etmişdilər. Həmin dövrdə Yaxın Şərqdə üç əsas xristian icması – yunanlar, erməni pravoslavlar və suriyalı melkitlər yaşayırdılar. Yunanların əraziləri müsəlmanlar tərəfindən zəbt edildiyindən xaçlılar ermənilərin ərazilərindən dayaq məntəqələri kimi istifadə edirdilər. Ermənilər xaçlılara bələdçilik edir, onları ərzaq və digər zəruri şeylərlə təmin edirdilər. Hətta 1098-ci ilin qışında ermənilər xaçlılarla birləşərək, Samosat şəhərinə hücum etdilər, lakin səlcuq türkləri xaçlı xristian birləşmələrinə ağır zərbələr endirdilər və onların başçıları olan qraf Bolduin ilə Konstantin xeyli sayda itki, tələfat verərək geri çəkilməyə məcbur oldular.

Döyüşlərdə ağır itki verən ermənilər (haylar) bunu heyfini Edessa hakimi Torosdan çıxmaq üçün ona qarşı sui-qəsd planı hazırlayaraq bu işə qraf Bolduini də cəlb etdilər. Onlar şəhərdə üsyan qaldıraraq, böyük çaxnaşma yaratdılar. Şəhərin hakimi Torosa ailəsi ilə birlikdə getməyə söz versə də, o, qəzəbli kütlə tərəfindən amansızlıqla qətlə yetirildi. Ermənilərin xəyanəti nəticəsində Edessa yaxın Şərqdə xaçlılara tabe edilən ilk şəhər oldu. Erməni knyazı Qavril isə xaçlılarla səlcuqi türklər arasında ikiüzlülük göstərdiyi üçün döyüşlərin birində türklər tərəfindən öldürülərək, itlərə atılmışdı.

Təbii ki, Yaxın Şərqi müsəlmanlardan təmizləməyə çalışan xaçlılar yerli xristianların köməyindən istifadə edirdilər və ermənilər bu işdə xüsusi fəallıq göstərirdilər. Müsəlmanlara və türklərə qarşı vuruşan xaçlılara kömək etmiş ermənilərə sonrakı yüzilliklərdə Yaxın Şərqdə

xüsusi imtiyazların verilməsinin nəticəsidir ki, bu gün həmin bölgə yenidən münaqişələr içərisində alovlanmaqdadır.

Əbəs yerə deməmişlər ki, dünya sussa da tarix susmur!

ƏDƏBİYYAT

1. Заборов М.А. Крестовые Походы. Москва, 1956.
2. Заборов М.А. Крестоносцы и Их Походы на Восток. Москва,1962.
3. История Крестовых Походов В Документах и Материалах. Москва, 1977.
4. Успенский Ф.И. История Византийской Империи. Москва, 1948.
5. Эпоха Крестовых Походов. Москва, 1999.
6. Босворт К.Э. Мусульманские Династии. Москва, 1971.
7. Семенова Л. Салахаддин И Его Время. Москва, 1967.
8. Адам Мец. Мусульманский Ренесансс. Москва, 1967.
9. Süleyman Koçabaş. Parisin Doğu Yolunda Yapdıqları: Tarixdə Türklər və Fransızlar. İstanbul, 1992.
10. Sadik Dana. Türk Qahramanları. İstanbul, 1991.
11. Ramazan Şeşən. Səlahəddin Əyyubi və Devleti. İstanbul, 1987.
12. Cəvahirləl Nehru. Ümumdünya Tarixinə Nəzər. Bakı, 1986.

УДК 94

*Я.И.Сулейманов*
*Гянджинский Государственный Университет*

## КАК АРМЯНЕ ПРЕДАЛИ НАРОДЫ БЛИЖНЕГО ВОСТОКА КРЕСТОНОСЦАМ

*РЕЗЮМЕ*

*Ключевые слова:* крестовые походы, крестоносцы, армяне, турки-сельджуки, Византия, Антиохия

Крестовые походы, которые произошли в средневековье, составляют один из важнейших исторических событий данного времени. Исследование истории крестовых походов отличается своей актуальностью по сей день. В данном исследовании основное влияние было направлено на то, что в этот период, то есть в ходе крестовых походов армяне (хаи) со своим предательским характером предали того или иного союзника ради своих гнусных целей. В данной статье, ссылаясь на источники, была отражена сущность армянского предательства, которую армяне сделали для народов Востока.

UDC 94

*Y.I.Suleimanov*
*Ganja State University*

HOW THE ARMENIANS SOLD THE PEOPLES OF THE MIDDLE EAST TO THE CRUSADERS

*SUMMARY*

*Key words:* crusades, crusaders, armenians, seljuk turks, Byzantium, Antioch

The Crusades are among the most significant events of the medieval historical period. The study of the history of the Crusades remains relevant today. In the period we have researched, the betrayal of the Armenians (Hay people) during the course of the Crusades, their switching sides to rival factions, betraying their allies at the last moment, and other such incidents have been analyzed and illuminated based on known historical facts. The treachery of the Armenians against the Eastern peoples during the Crusades, their duplicity, and their treacherous nature are reflected here.

**Daxil oldu: 11.03.2024-cü il**